TOBB ETÜ
Ekonomi ve Teknoloji Üniversitesi

# TOBB Ekonomi və Teknoloji Universitetdə 2025/2026-cı tədris ili üçün doktorantura təhsili üzrə təqaüd proqramı

**Ölkə:** **Türkiyə**

**Təhsil səviyyəsi:** **Doktorantura**

**Tədris ili:** **2025-ci ilin payız semestri**

**Son tarix:** **1 aprel 2025-ci il**

| | | |
|---|---|---|
| **Hədəf:** | → | Türkiyə ali təhsil müəssisələrində akademik imkanlarının gücləndirilməsi məqsədilə AR vətəndaşlarının doktorantura təhsil səviyyəsinə qəbulu |
| | | |
| **Hədəf qrupu:** | → | Prioritet elm sahələri üzrə yüksək tədqiqat bacarıqlarına malik gənc tədqiqatçılar |
| | | |
| **Prioritet ixtisas istiqaməti:** | | Kvant kompüter mühəndisliyi ixtisas istiqaməti |
| | | |
| **Kvota** | → | 2 yer |
| | | |
| **Müddət:** | → | 4-5 il |
| | | |
| **Qarşılanan xərclər:** | → | Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi aşağıdakı xərcləri əhatə edir:<br><br>- təhsil haqqı;<br>- aylıq təqaüd (45 000 TRY); |
| **İlkin seçim meyarları:** | → | - Müraciət edən iddiaçıların əvvəlki təhsil səviyyəsi üzrə minimum **ÜOMG tələbləri:** |

    - bakalavriat səviyyəsi üzrə 4 üzərindən 2,5-dən aşağı olmaması;
    - magistratura səviyyəsi üzrə 4 üzərindən 3,2-dən aşağı olmaması;

- Minimum **dil biliyi** göstəricisi (KPDS, ÜDS, YDS, e-YDS) – 75;

  Ekvivalentlik nəzərə alınaraq, digər qəbul olunan beynəlxalq dil sertifikatlar

- **ALES** -75;

- Akademik mühitdə çalışan şəxslərə üstünlüyün verilməsi;

- Müraciət edən namizədlərin ixtisasları üzrə elmi tədqiqat işlərinin olması;

- Namizədin mühakimə yeritmək, elmi tədqiqat işinin aparılması bacarıqlarının olması;

- Azərbaycanda dövlət hesabına doktorantura təhsili almaması və ya hazırda doktorantura təhsilinin 50%-ni tamamlamamış olması;

- Namizədin həqiqi hərbi xidmət keçməsi, yaxud xarici ali təhsil müəssisəsində təhsili başlayanadək çağırışa möhlətinin olması və ya çağırışdan azad edilməsi.

**Müraciət tarixləri:** →

**Son tarix**: 1 aprel 2025-ci il

**Müraciət üçün tələb olunan sənədlər:** →

| **Sənədin adı** | **Tələb** | **Qeyd** |
|---|---|---|
| Diplom(lar) və əlavəsi(ləri) | Namizədlərin diplom və əlavələri notarial qaydada təsdiq edilməlidir. | Ali təhsilini başa vurmuş, lakin bu və ya digər səbəblər üzündən seçimin aparıldığı müddətdə ali təhsil haqqında sənəd almamış namizədə |

| | | | | |
|---|---|---|---|---|
| | | | | bu barədə ali təhsil müəssisəsi tərəfindən verilmiş arayış təqdim edilməlidir. |
| | | Hərbi bilet və ya hərbi xidmətdən möhlət haqqında sənəd | Müvafiq səhifələr notarial qaydada təsdiq edilməlidir. | Əsas səhifə ilə yanaşı müvafiq məlumatların qeyd olunduğu səhifələr də təqdim edilməlidir. |
| | | Tövsiyə məktubları | 1 ədəd | Tövsiyə məktubu ərizəçinin doktorantura səviyyəsi üzrə təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva etməli və professor-müəllim tərəfindən rəsmi şəkildə təsdiqlənmiş olmalıdır. |
| | | Sağlamlıq haqqında arayış | Sağlamlıq haqqında arayışın forması AZS-086/1 olmalıdır. | - |
| | | Tədqiqat işi | Azərbaycan dilində və 2000 sözdən az olmayan həcmdə. | Tədqiqat planı: qısa xülasə, metodologiya, tədqiqat sualı, biblioqrafiya. |
| | | Elmi-məqalələrin surətləri (mövcud olduğu halda) | Xarici ölkələrin təsir gücünə (impakt faktoruna) malik olan, istinad indeksli elmi nəşrlərində dərc olunmuş elmi məqalələr olmalıdır. | - |

| | | |
|---|---|---|
| **Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi ilə əlaqə:** | → | Sözügedən təqaüd proqramı ilə bağlı suallarınızı htpinfo@eatda.edu.az elektron poçtuna ünvanlaya bilərsiniz. |